UOT 372.894(3) Az

***İsmayıl Kamil oğlu Nəsirov***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
https://orcid.org/0009-0003-7649-2726

# ALİ PEDAQOJİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ QƏDİM DÜNYA TARİXİ KURSU ÜZRƏ SEMİNAR MƏŞĞƏLƏLƏRİNDƏ TƏDQİQATIN APARILMASI METODLARI

***Исмаил Камиль оглы Насиров***
*Азербайджанский Государственный Педагогический Университет*

# МЕТОДЫ ПРОВЕДЕНИЯ ИССЛЕДОВАНИЯ НА СЕМИНАРСКИХ ЗАНЯТИЯХ ПО КУРСУ ДРЕВНЕЙ ВСЕМИРНОЙ ИСТОРИИ В ПЕДАГОГИЧЕСКИХ ВУЗАХ

***Ismail Kamil Nasirov***
*Azerbaijan State Pedagogical University*

# ADVANCED EXPERIENCE IN THE USE OF RESEARCH METHODS IN SEMINAR SESSIONS ON THE COURSE OF ANCIENT WORLD HISTORY IN HIGHER EDUCATIONAL INSTITUTIONS

**Xülasə.** Məqalədə mövzunun aktuallığı əsaslandırılıb. Ali pedaqoji təhsil müəssisələrində qədim dünya tarixi kursu üzrə seminar məşğələlərinin yeri və rolu müəyyənləşdirilib. Tədqiqatın aparılması metodunun kublaşdırma, sorğu vərəqləri və müsahibələr, qərarlar ağacı üsullarından qabaqcıl ali məktəb müəllimlərinin necə istifadə etdiklərinə aydınlıq gətirilib.
***Açar sözlər:*** *tədqiqat metodu, ali təhsil müəssisəsi, təlim, tədris metodları, müasir təhsil*

**Резюме.** В статье обоснована актуальность темы. Определены место и роль семинарских занятий по курсу древней мировой истории в педагогических высших учебных заведениях. Выяснено, как передовые учителя старших классов используют методы исследования, такие как кубирование, анкетирование и интервью, а также пользуются методом «дерево решений».
***Ключевые слова:*** *методы исследования, высшие учебные заведения, обучение, методы обучения, современное образование*

**Summary.** The relevance of the topic is justified in the article. The place and role of seminar classes on the course of ancient world history in higher pedagogical educational institutions have been determined. It has been clarified how advanced high school teachers use the methods of research, such as cubing, questionnaires and interviews, and decision trees.
***Key words:*** *research method, higher education institution, training, teaching methods, modern education*

Müasir dövrdə təlim səriştələrin formalaşmasının davamlı prosesi kimi də səciyyələndirilir. Ona görə də ali təhsil müəssisələrində səriştəli mütəxəssislərin formalaşdırılması problemi alimlərin, müəllimlərin, ictimaiyyət nümayəndələrinin diqqətini xüsusilə cəlb edir. Səriştəli mütəxəssislərin mövcudluğu birbaşa olaraq sosial və iqtisadi sahəyə təsir göstərir. “Təlimin təşkili üçün yeni tələblər yeni texnologiyaların inkişafının ənənəvi məqsədi əvəzinə fərqli nizamlı normaların gəlməsinə əsaslanır, hər kəsə nə insana, nə təbiətə, nə də cəmiyyətə zərər verməyən bilikləri öyrənməyə, öyrətməyə ehtiyac var. Müasir təlim tələbələrin funksional savadlılığını, peşəkarlığını və sürətlə dəyişən dünyada həyata hazırlığını formalaşdıraraq, daha səriştəli və praktiki bacarıqlarına yiyələnmələrinə yönəldilib. Mütəxəssis intellektual bacarıqlara, sis-

temli düşüncə tərzinə, fəaliyyətinin nəticələrini qabaqcadan görmək bacarığına və s. malik olmalıdır" [1].

Rusiyalı tədqiqatçı C. Mitrofanov yazır: "Müasir müəllim tələbələrin əqli fəaliyyətinin inkişafında, eləcə də proqram materialından kənara çıxan müxtəlif bacarıq və biliklərin mənimsənilməsi prosesində mühüm rol oynamağa çağırılır" [2, s-31].

Dərs zamanı tədqiqat aparılarkən bir sıra metodlardan istifadə etmək zərurəti meydana gəlir. Bunlardan biri ali məktəb müəllimləri tərəfindən tez-tez müraciət olunan kublaşdırma metodudur. Kublaşdırma mövzunun hərtərəfli öyrənilməsi məqsədilə tələbələri onu təsvir, müqayisə, əlaqələndirmə, təhlil, tətbiq və mübahisəyə istiqamətləndirir. Kublaşdırmanın məqsədinə bunlar daxildir:

- keçilən mövzuya müxtəlif cəhətlərdən nəzər salmağın sadələşdirilməsi;
- məntiqi və tənqidi təfəkkürün inkişafı;
- cisim və ya hadisəyə hərtərəfli baxışın formalaşdırılması;
- qiymətləndirmə bacarığının formalaşdırması;
- təhlil prosesinin inkişaf etdirilməsi;
- əməkdaşlıq vərdişlərinin formalaşdırılması.

Müəllim tədqiqatçılıq metodlarından mövzunu, situasiyanı və s. tədqiq etmək istədiyi zaman istifadə edir. Bu zaman tələbələr mürəkkəb və inteqrativ yanaşmalar üçün tələb olunan bacarıqları inkişaf etdirmək imkanı əldə edirlər. Qədim dünya tarixi kursu üzrə seminar məşğələlərində tədqiqatın aparılması zamanı kublaşdırma metodundan istifadə edərkən, ilkin olaraq, kiçik, 15-20 sm ölçüdə kağızdan kub hazırlanmalıdır. Daha sonrakı mərhələdə kubun hər bir üzünə "Təsvir et", "Müqayisə et", "Əlaqələndir", "Təhlil et", "Tətbiq et", "Mübahisə et" göstərişləri qeyd olunur.

Ali pedaqoji təhsil müəssisələrində qədim dünya tarixi kursu üzrə seminar məşğələlərində tədqiqatın aparılması metodlarından istifadə ilə bağlı bir neçə müəllimin dərslərində iştirak edərək onların bu barədə fikirlərini öyrənməyə çalışdım. Müəllimlərin bir qismi dərsin ənənəvi formada keçirilməsinin daha çox faydalı olduğunu bildirdilər. Həmin müəllimlər seminarda tələbələrin əməkdaşlıq şəraitində çalışmasına və interaktiv metodlardan istifadəyə ehtiyac duyulmadığını düşünürlər. Əlbəttə ki, bu fikrə qarşı çıxan bir sıra müəllimlər də var ki, onlar seminar məşğələlərində əsasən yeni təlim metodlarından istifadənin daha səmərəli olduğunu düşünürlər.

ADPU-nun "Ümumi tarix və tarixin tədrisi texnologiyası" kafedrasının müəllimi dosent Laçın Mustafayevin "Qədim dünya tarixi" fənnindən seminar məşğələsində iştirak edərək dərsin gedişatını izlədim. Müəllim "Qədim Misir dövləti" mövzusundan seminar məşğələsi aparırdı. Seminarın gedişi ərzində müəllim kublaşdırma metodundan istifadə edərək şagirdlərin mövzu ilə bağlı təsvir, təhlil, müqayisə, tətbiq, mübahisə etməsinə şərait yaradırdı.

Sorğu vərəqləri və müsahibə sosioloji tədqiqat metodunun ən maraqlı növlərindən biri hesab olunur. Anket – soruşulan məlumatların göstərilmiş qayda üzrə müstəqil qeyd olunmuş sorğu vərəqidir. Müsahibə isə hər hansısa bir fakt, hadisə, münasibət və fikirlər haqqında məlumat əldə etmək vasitəsidir. Müsahibə araşdırılan məsələ ilə bağlı faktlar və hadisələr haqqında hər hansı cəmiyyət qrupunun ictimai rəyi barədə məlumat almaq məqsədilə, həmçinin tələbələrlə tez bir zamanda əks-əlaqə yaratmaq, məntiqi və tənqidi təfəkkürün formalaşdırılması, elmi-tədqiqat vərdişlərinin aşılanması və s məqsədilə aparılır: Ümumiyyətlə, istənilən bir araşdırma özündə bir neçə mərhələni əks etdirməlidir:

- tədqiqatın hazırlanması və təşkili;
- məlumatların toplanması: bu zaman sorğunu həyata keçirmək üçün tələbələrə içində suallar olan vərəqlər paylanılır ki, onlar da həmin bu suallara cavab tapmalıdırlar. Eyni zamanda, tələbələrə öz düşüncələrini, hisslərini, təkliflərini və arzularını ifadə etmək imkanının verilməsi də xüsusi əhəmiyyət kəsb edir;
- əldə edilmiş məlumatların işlənib hazırlanması;
- təhlil və ümumiləşdirmə.

Anketdə yer alan suallar dəqiq, konkret olmalı və maksimum bitərəf şəkildə ifadə olunmalıdır. Suallar açıq və qapalı formada da ola bilər. Müsahibə aparmaq üçün tələbələri məqsədəuyğun suallar tərtib etməyə və müsahibənin nəticələrinin təhlilini keçirməyə yönəltmək lazımdır. Müsahibə üsulu ilə aparılan sorğu zama-

nı suallar tədqiqat mövzusuna uyğun olmalı, soruşulanların cavabları dəqiq qeydə alınmalı, soruşulanların xüsusiyyətləri qeydiyyatdan keçirilməlidir.

Müsahibənin keçirilməsi üçün bir sıra göstəricilər mövcuddur. Müsahibə aparmazdan öncə bir sıra məsələlər barədə fikirləşmək lazımdır. Məsələn: “Biz nəyi müəyyən etmək istəyirik?” Bununla bağlı suallar tərtib edilməlidir. Çalışmaq lazımdır ki, suallar sadə və anlaşıqlı olsun. Kiminlə müsahibə aparılacağı əvvəldən müəyyən olunmalıdır. Müsahibə zamanı suallara verilən cavablar diqqətlə dinlənilməli və qeydə alınmalıdır. Yekunda isə əldə edilən nəticələr təhlil olunaraq ümumiləşdirmə aparılmalıdır.

Dərsdə sorğu vərəqləri və müsahibə metodundan istifadə olunan zaman öncədən suallar hazırlanmalı və anket vərəqləri çap olunmalıdır. Bu zaman tələbələrdə ünsiyyət problemi, nəticələrin çıxarılmasında çətinlik, həmçinin elmi-tədqiqat vərdişlərinin zəif inkişaf etməsi və vaxtın düzgün bölüşdürülməməsi kimi problemlər yarana bilər.

“Qərarlar ağacı” metodu ilk dəfə ABŞ alimləri Con Patrik və Riçard Remi tərəfindən təklif edilmişdir. Dərs zamanı qərarlar ağacı metodundan, çətin və birmənalı olmayan vəziyyətlərdə qərar qəbul etmək üçün problemlərin bir neçə həlli yollarını tapmaq, qərarların qəbul edilməsi zamanı rəhbər tutulan səbəblərin təhlilini və başa düşülməsini asanlaşdırmaq, mübahisəli baxışları və qərarları yaxınlaşdırmaq, tələbələrin biliklərini ümumiləşdirmək və onları qiymətləndirmək üçün imkan yaratmaq məqsədilə istifadə olunur. Bu metoddan istifadə etməklə tələbələr mümkün olan qərarların bütün variantlarını, həmçinin bu variantlarla əlaqədar müsbət və mənfi cəhətləri geniş formada təhlil edirlər. Bununla da qərarın qəbul edilməsi kifayət qədər sadələşir və tələbələrdə düşünülmüş qərar qəbul etmək bacarığı formalaşır. Qərarlar ağacı metodundan istifadə olunan zaman tələbələr verilən mövzu ilə bağlı müəyyən biliklərə malik olmalıdırlar. Eyni zamanda, onlar qabaqlayıcı ev tapşırığı qismində problem üzrə faktları toplaya bilərlər. [3, s-443-455]

Müşahidələrimi daha çox Azərbaycan Dövlət Pedaqoji Universitetində apararaq daha bir müəllimin, ADPU-nun “Ümumi tarix və tarixin tədrisi texnologiyası” kafedrasının müəllimi dos. Elvin Əliyevin “Qədim dünya tarixi” fənnindən “Qədim Şumerlilər” mövzusundan seminar məşğələsində iştirak edərək dərsin gedişatını izlədim. Müəllim tədqiqat mərhələsində müzakirə problemini izah edir və onun həlli yollarının bir neçə variantını tələbələrlə birlikdə müəyyənləşdirir. Daha sonra tələbələr 4-6 nəfərdən ibarət qruplara bölünür və hər qrupa iş vərəqləri, markerlər verilir. Müəllim 10-20 dəqiqə ərzində tapşırığın yerinə yetirilmə müddətini müəyyən edir: məşğələ zamanı qruplar iş vərəqlərində sxem üzrə tərtib olunmuş cədvəli doldururlar. Problemin həlli yollarının hər variantın üstünlüklərini və qüsurlarını təhlil edir, problemin həlli üsulu haqqında qərar qəbul etməyə çalışırlar. Yekunda qərarı cədvəlin aşağı hissəsində qeyd edirlər. Daha sonra hər qrupdan seçilmiş bir nümayəndə öz işləri haqqında növbə ilə təqdimat edir. Təqdimat zamanı qərar yazılan hissə örtülür, qrupların nümayəndələri xanalarda olan yazıları oxuyur, lakin qərarı bildirmir. Tələbələr öz fikirlərini söylədikdən sonra cədvəldə qeyd olunan “qərar” xanası açılır. Bütün qruplar öz işlərini təqdim etdikdən sonra isə müəllim əldə olunmuş nəticələri müqayisə edərək, tələbələrin suallarına cavab verir. Dərsi müşahidə etdiyim zaman diqqət etdim ki, tələbələr tapşırığı alarkən sürətli şəkildə qərar qəbul etməyə hər hansısa bir variantı seçməyə çalışırlar. Bir qrupun fikrincə, cavab artıq aydındır və digər variantların müzakirəsi olunması əlavə vaxt itkisidir. Bu tip hallarda müəllim tərəfindən tələbələrə bütün variantları müzakirə edib başa çatdırdıqdan sonra qərar qəbul etməyin lazım olduğunu xatırlatmaq zəruridir. Digər bir qrup isə hər hansısa variantı seçmir, əvəzində bir neçə variantı birləşdirməyə çalışır. Müəllim isə onlara izah etməlidir ki, verilən tapşırığın şərti variantlardan yalnız birini seçməyi nəzərdə tutur.

“Respublikamızda XX əsrin ortalarından tarixin təlimi metodikasının praktik istiqamətlərində səmərəli fəaliyyət göstərmiş Rafiq Xəlilovun, Türyan Əzizovun, Ramiz Hüseynovun, Sabir Ağayevin, Elmira Qasımovanın, Lalə Əsədovanın, Leyla Mansurovanın, Dəyanət Musayevin, Nəzakət Mehdiyevanın, təqdirəlayiq xidmətləri xüsusilə qeyd olunmalıdır. Bununla yanaşı, kadr hazırlığının, proqram, dərslik və metodik ədəbiyyatların hazırlanmasına öz töhfəsini verən görkəmli tarixçi-metodistlərimizdən Mü-

bariz Əmirov, Şamil Məmmədbəyli, Novruz Paşayev, Məzahir Quliyev, Tahir İskəndərov əldə edib təkmilləşdirdikləri metodik fikir və nəzəriyyələri, eləcə də qabaqcıl təcrübəni gələcək nəsillərə ötürməklə xeyirxah bir iş görüblər." [3, s-45,46].

**Problemin aktuallığı.** Problemin öyrənilməsi nəticəsində müəyyən etdik ki, ali pedaqoji təhsil müəssisələrində qədim dünya tarixi kursu üzrə seminar məşğələlərində tədqiqatın aparılması metodlarından istifadə sahəsində əsaslı tədqiqatlar aparılmadığına görə ali məktəblərimizdə bu səmərəli metoddan yetərincə istifadə olunmur. Güman edirik ki, təqdim etdiyimiz bu məqalə həmin sahədə olan boşluğun doldurulmasında müəyyən rol oynayacaq.

**Problemin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, burada irəli sürülən fikirlər tarixin tədrisi metodikası elmini müəyyən səviyyədə zənginləşdirir.

**Problemin praktik əhəmiyyəti.** Məqalənin praktik əhəmiyyəti odur ki, məqalənin məzmunundan ali məktəblərin müəllimləri öz pedaqoji fəaliyyətlərində yararlana biləcəklər. Ali pedaqoji təhsil müəssisələrində qədim dünya tarixi üzrə seminar məşğələlərində tədqiqatın aparılması metodlarından istifadəyə dair qabaqcıl təcrübədən istifadə təlimin səmərəliliyini artıraraq tələbə şəxsiyyətinin formalaşmasında mühüm rola malikdir.

Nəticə olaraq deyə bilərik ki, ali məktəblərdə qədim dünya tarixi kursunun seminar məşğələlərində tədqiqatın aparılması metodlarından istifadəyə dair təcrübəni öyrənərkən aydın oldu ki, bu problemin tədqiqinə çox böyük ehtiyac var. Tədqiqatçılıq metodu tələbələrdə təfəkkürün inkişafına motiv yaradır. Güman edirik ki, təqdim etdiyimiz məqalə və apardığımız tədqiqat bu sahədə olan boşluğun doldurulmasına qismən kömək edəcək. Problem öz tədqiqatçısını gözləyir.

**Ədəbiyyat:**


1. Pedagogical Research Methods of Training in Higher Educational Establishments: A Comparative Analysis - Yelena V. Ponomarenkoa, Rabiga I. Kenzhebekovab, Aidarbek A. Yessaliyevc, KulahmetMoldabekb, Liudmila A. Larchenkovad, Serik S. Dairbekove, and Gulnara Jumagulovaf.
2. Митрофанов С. Использование компьютерных технологий в преподавании истории в школе // История.– 8-15 мая 2012.– № 18.– С.9-11.
3. Əmirov M.M. Ümumtəhsil məktəblərində tarixin fəal/interaktiv təlimi metodikası (Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti). - Bakı, 2014.


**E-mail:** ismayil.nasirov@adpu.edu.az

**Rəyçilər:** *ped.ü.elm.dok..prof.* **M.M. Əmirov,**
*ped.ü.fəls.dok.* **D. Musayev**
**Redaksiyaya daxil olub:** 21.04.2023